AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Fevral 2023

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 3
Rusiya buğdasının ixrac qiyməti ........ 6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 10
Pambığın dünya bazarı qiymətinə dair qısa icmal ........ 11
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ........ 14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22
Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 23
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 3 mart 2023-cü il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksi 2023-cü ilin fevral ayında 11-ci ay ardıcıl olaraq düşmüşdür.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2023-cü ilin fevral ayında orta hesabla 129.8 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.8 bənd), ötən ilin fevral ayı ilə müqayisədə isə 8.0% (11.3 bənd) **azdır**.
- **Ət Məhsullarının Qiymət İndeksi** fevral ayında orta hesabla 112.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.1% (0.1 bənd), ötən ilin fevral ayı ilə müqayisədə isə 1.3% (1.4 bənd) **azdır.**
- **Süd Məhsullarının Qiymət İndeksi** fevral ayında orta hesabla 131.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.7% (3.6 bənd), ötən ilin fevral ayı ilə müqayisədə isə 7.2% (10.2 bənd) **azdır**.
- **Taxıl Qiyməti İndeksi** fevral ayında orta hesabla 147.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.1% (0.2 bənd) az, ötən ilin fevral ayı ilə müqayisədə isə 1.4% (2.0 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** fevral ayında orta hesabla 135.9 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.2% (4.5 bənd), ötən ilin fevral ayı ilə müqayisədə isə 32.6% (65.8 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** fevral ayında orta hesabla 124.9 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 6.9% (8.1 bənd), ötən ilin fevral ayı ilə müqayisədə isə 13.0% (14.4 bənd) **çoxdur.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 8 mart 2023-cü il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalı proqnozu fevral ayı ilə müqayisədə 5.1 milyon ton artırılaraq 788.9 milyon ton səviyyəsində qiymətləndirilib.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 285 | 271 |
| | İstehsal | 774 | 779 | 789 |
| | **Cəmi təklif** | 1073 | 1064 | 1060 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 203 | 214 |
| **TƏLƏB** | Ərzaq və toxum | 625 | 632 | 635 |
| | Yem | 163 | 160 | 159 |
| | Cəmi istifadə | 788 | 793 | 793 |
| **İLİN SONUNA QALIQ** | | 285 | 271 | 267 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **37%** | **35%** | **34%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Bununla belə, məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 4 milyon ton azalaraq 1060 milyon ton olacağı proqnozlaşdırılır. Bunun başlıca səbəbi ötən mövsümə nəzərən cari mövsümdə ilin əvvəlinə olan qalıq həcminin 4.9% azalaraq 271 milyon tona düşməsidir.

- Qlobal buğda ehtiyatları həcminin 2021/2022-ci məhsul ili ilə də müqayisədə 2022/2023-cü məhsul ilində 1.5% azalacağı və 267 milyon tona düşəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34% səviyyəsində olacaq.

- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 1 milyon ton artaraq 60 milyon ton, istehsal həcminin isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 11 milyon ton çox (395 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 12 milyon ton çox (455 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 11 milyon ton artaraq 214 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə 3 milyon ton artaraq 140 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 6.9% artaraq 143.3 milyon ton, ixracın isə 10.6% artaraq 68.6 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ **Dünya birjalarında 2022-ci ilin avqust ayından etibarən buğdanın qiymətində başlayan artım trendi noyabr ayında yenidən azalma ilə əvəzlənmişdir. 2023-cü ilin fevral ayında da buğdanın qiymətindəki azalma davam edərək əvvəlki aya nisbətən 0.5% azalaraq 312 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

## Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiymətindəki azalma 2023-cü ilin fevral ayında da davam etmişdir. Fevral ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 1.1% azalaraq 304 ABŞ dolları/ton təşkil etmişdir.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral ayında arpanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən Avropa bazarında 0.6% və 0.9% artaraq müvafiq olaraq 301 və 279 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- **2022-ci ilin noyabr ayından düyünün qiymətində başlayan artım trendi 2023-cü ilin fevral ayında azalma ilə əvəz olunmuşdur. Fevral ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki aya nisbətən 3.2% azalaraq 469 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ Qarğıdalının dünya bazarı qiymətində yanvar ayında cüzi artım müşahidə olunsa da, fevral ayında yenidən azalmışdır. Bu ayda qarğıdalının qiyməti əvvəlki aya nisbətən 1.5% azalaraq 298 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

- **Dünya üzrə pambıq balansına əsasən, 2022/23-cü məhsul ilində pambıq istehsalının 2021/22-ci məhsul ili ilə müqayisədə 0.4% azalaraq 25.1 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 Fevral | 2022/2023 Mart |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.0 | 18.0 | 21.4 | 18.8 | 18.6 | 18.7 |
| **İstehsal** | 25.8 | 26.2 | 24.3 | 25.2 | 24.9 | 25.1 |
| **Təklif** | 43.8 | 44.1 | 45.7 | 44.0 | 43.5 | 43.8 |
| **Fabrik istehlakı** | 26.1 | 22.7 | 26.8 | 25.3 | 24.1 | 24.0 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 21.4 | 18.8 | 18.7 | 19.4 | 19.8 |
| ***Qalıq/İstehlak nisbəti*** | *68.8%* | *94.2%* | *70.0%* | *74.1%* | *80.5%* | *82.8%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Mart |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 7.9 | 8.2 | 8.4 |
| **İstehsal** | 6.0 | 6.4 | 5.8 | 6.4 |
| **İdxal** | 1.6 | 2.8 | 1.7 | 1.6 |
| **Təklif** | 15.3 | 17.2 | 15.8 | 16.5 |
| **Fabrik istehlakı** | 7.4 | 8.9 | 7.3 | 7.8 |
| ***İlin sonuna qalıq*** | 7.9 | 8.2 | 8.4 | 8.6 |
| ***İstehlak*** | 7.4 | 8.9 | 7.4 | 7.9 |
| ***Qalıq/İstehlak nisbəti*** | *106.4%* | *92.2%* | *113.9%* | *109.2%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Mart |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.1 | 13.5 | 10.6 | 10.4 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.4 | 18.6 |
| **Təklif** | 30.4 | 31.3 | 30.0 | 29.0 |
| **Fabrik istehlakı** | 15.3 | 17.9 | 18.0 | 16.1 |
| **Çinə ixrac** | 1.6 | 2.8 | 1.7 | 1.6 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.7 | 17.8 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.6 | 10.4 | 11.3 |
| ***Qalıq/İstehlak nisbəti*** | *79.9%* | *51.0%* | *52.6%* | *63.4%* |

**Mənbə**: https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/

# Pambığın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Son 5 ayda pambığın dünya bazarı qiyməti demək olar ki, stabil qalmışdır. Fevral ayında pambığın 1 kiloqramının "A Index" qiyməti əvvəlki aya nisbətən cüzi azalaraq 2.19 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 1.7% artaraq 65.4 min ABŞ dolları/ton səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

## Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 2.9% artaraq tona 21.9 min ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin mart ayında kəskin artan günəbaxan yağının qiymətində növbəti aylardan etibarən azalma trendi müşahidə olunur. 2023-cü ilin fevral ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən 4.3% azalaraq 1168 ABŞ dolları səviyyəsinə enmişdir.**







**Mənbə:** *https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 0.6%, İspaniya bazarında 2.3% azalmaqla müvafiq olaraq 6544 və 5602 ABŞ dolları, Yunanıstan bazarında isə 0.4% artaraq 5034 ABŞ dolları təşkil etmişdir.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Çayın qiymətində 2022-ci ilin sentyabr ayından başlayan azalma 2023-cü ilin fevral ayında da davam etmişdir. Fevral ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 2.5% azalaraq 2.7 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral ayında şəkərin dünya bazarı qiyməti əvvəlki aya nisbətən 6.2% artaraq 0.45 ABŞ dolları/kq səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Soya qiymətlərində son iki ayda müşahidə edilən azalma fevral ayında artımla əvəz olunmuşdur. Fevral ayında soyanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən 3.9% artaraq 651 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ Son 10 ayda mal ətinin qiymətində müşahidə olunan azalma trendi 2023-cü ilin fevral ayında artımla əvəz olunmuşdur. Fevral ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 4.5% artaraq 5.1 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **Qoyun ətinin qiymətində yanvar ayında müşahidə olunan azalma fevral ayında da davam etmişdir. Avropa bazarında bu ətin 1 kiloqramının orta qiyməti ötən aya nisbətən 3.4% azalaraq 7.52 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

# Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ 2023-cü ilin fevral ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 6.2% artaraq 2.3 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti 2022-ci ilin avqust ayından etibarən sabit qalıb, 3.31 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

## Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-ci ilin yanvar ayında əvvəlki ayla müqayisədə süd xammalının 1 tonunun fermadan satış qiyməti ABŞ-da 6.3%, Yeni Zelandiyada 4.9% azalmaqla müvafiq olaraq 510 və 413 ABŞ dolları, Avropa İttifaqı qiyməti isə fevral ayında əvvəlki ayla müqayisədə 3.3% azalaraq 587 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ Quru südün 1 tonunun qiyməti 2023-cü ilin fevral ayında əvvəlki ayla müqayisədə ABŞ-da 2.3%, Avropa İttifaqında isə 10.1% azalaraq müvafiq olaraq 4812 və 3831 ABŞ dolları olmuşdur.







Mənbə: https://www.clal.it/en/index.php

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Fevral ayında kalium gübrəsinin qiyməti əvvəlki aya nisbətən sabit qalmış, fosfor və azot gübrələrinin qiyməti isə müvafiq olaraq 3.8% və 19.4% azalmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets*

**Əlaqə:**

(+994 12) 599-08-88
www.atm.gov.az
info@atm.gov.az
Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ